## Çöküşə 15 dəqiqə qalır: İslam Respublikasının çöküş nişanələri

*07.08.2025*

*Mohsen Məhiməni – “İran İnternational”*

Filosof və siyasi tarixçi Hanna Arendt, deyir: “Diktatura rejimlərində süquta 15 dəqiqə qalmışa qədər hər şey normal görünür”.

Bu məşhur ifadə avtoritar rejimlərin, xüsusən rəy almaq və ya struktur islahatları aparmaq qabiliyyəti olmayan rejimlərin gözlənilməz, qəfil və sürətlənən dağılması prosesinə aiddir. Belə şəraitdə idarəetmə orqanının açıq-aşkar sağ qalması onun liderləri üçün idarəetmənin davamlılığı illüziyası yaradır.

Son aylarda istər müstəqil müşahidəçilər, tənqidçilər, hətta hökumətə yaxın bəzi simalar İslam Respublikasında tənəzzül əlamətlərinin və struktur böhranlarının yarandığını etiraf ediblər. Amma İslam Respublikasının süqutu ehtimalı, hətta qaçılmaz olduğu halda, əsas sual budur: İşarələr nədir?

Samuel Hantinqtonun rejimlərin strukturu və tənəzzülü ilə bağlı nəzəriyyələrinə və Piter Turçinin çöküşü təhlili modelinə əsaslanaraq, bu əlamətlər əsasən spesifik sahələrdə araşdırıla bilər: institusional səmərəsizlik, legitimliyin azalması, güc çatışmazlığı, elit böhranı, etirazların artması, hökumət diskursunun dağılması, müxalifət və xarici təzyiq.

***Səmərəlilik; dolanışıq böhranı***

İslam Respublikası ilk onillikdən siyasi hökmranlıq və ictimai qurumu ələ keçirmək məqsədi ilə hakimiyyətin mərkəzləşdirilməsinə və dini, təhlükəsizlik, iqtisadi və hərbi qurumlardan ibarət kompleks şəbəkənin formalaşmasına doğru irəlilədi.

Belə bir siyasi quruluşda hökumətin sağ qalması ilə siyasətin qurulması prosesində ictimai rifahın təmin edilməsi arasında ikilik - hökumətdə həm inkişaf proqramlarında, həm siyasət sənədlərində, həm də müxtəlif hökumətlərin hərəkətlərində tədricən bir-biri ilə ziddiyyət təşkil edən iki sahə yarandı.

İnsanların evlərində elektrik və suyun kəsilməsi ilə səmərəsizlik və dolanışıq böhranı pik həddinə çatıb.

Haşimi Rəfsəncani hökumətinin daha sonra “ixtisaslaşma” adlandırılan özəlləşdirmə proqramı, kirayəçilər arasında ictimai resursların yenidən bölüşdürülməsi üsulu oldu. 90-cı illərdə Məşhəd kimi bir sıra şəhərlərdə baş verən dolanışıq etirazları belə bir yanaşmanın uğursuzluğunun ilk əlamətlərini göstərdi.

2005-ci ildə Əhmədinejad hökumətinin hakimiyyətə gəlməsi ilə bu səmərəsizlik struktur olaraq möhkəmləndi və institusionallaşdı. 2010-cu ildən sonra isə sanksiyaların güclənməsi ilə hökumətin iqtisadi sistemi, demək olar ki, iflic vəziyyətinə düşdü və valyuta, enerji, əsas mallar, səhiyyə kimi sahələrdə böhranlar özünü büruzə verdi.

Son aylarda hökumətin struktur və institusional səmərəsizliyi gücləndi və insanların evlərinə sızdı, ictimai həyatın keyfiyyətinə birbaşa təsir etdi. Enerji böhranı, elektrik və suyun kəsilməsi, geniş şəkildə əyalətlərdə baş verən tətillər və rəsmilərin ölkənin bəndlərinin boşaldılması ilə bağlı gündəlik xəbərdarlıqları bütün bu funksional pozğunluğun əlamətləridir.

***Elit Böhran; Qeyri-sabit siyasət quruculuğu***

Elitanın siyasət quruculuğundan təcrid olunması və qovulması siyasi sistemdə idarəçilik dövriyyəsinin çökməsi prosesinin sürətlənməsinin əlamətidir.

İslam Respublikası yarandığı ilk onillikdən eksklüzivizm çarxını hərəkətə keçirdi; solçu, millətçi və ya liberal cərəyanların aradan qaldırılması ilə başlayan proses, bu gün özünə ən yaxın olan siyasi qüvvələrə, hətta işçilərə, fəhlələrə və ictimai işlərin rəhbərlərinə belə mərhəmət göstərmir.

Siyasi partiyalardan tutmuş xeyriyyə qruplarına qədər onlarla təşkilatın ləğvi, müstəqil gildiyalara nəzarət, tənqidçilərin sistemli şəkildə sıxışdırılması onları nəinki qərar qəbul etmə prosesindən kənarlaşdırdı, həm də siyasətin formalaşması prosesini etibarsız, qeyri-elmi və qeyri-sabit etdi. Bu cür siyasətin qurulmasının əlamətlərindən biri də odur ki, Məclis (*Parlament*) Araşdırmalar Mərkəzi iqtisadi artımın dalana dirəndiyini və vətəndaşların təxminən üçdə birinin yoxsulluq həddinin altında olduğunu bildirir.

Belə bir şəraitdə orta təbəqənin mövcud vəziyyətə qarşı nəticəsiz etirazlarından sonra öz doğma yurdunu "tərk etmə" və "mühacirət" onun yeganə seçimi olur.

Səhiyyə Təşkilatı 2023-cü ildə tibb işçilərinin köç etməsinə dair müraciətlərin 10 dəfə artdığını bildirdi. İran Miqrasiya İdarəsi həmçinin 2000-ci illərin ortalarından bəri tələbə miqrasiyasının sayının hər on ildən bir iki dəfə artdığını açıqlayıb. Təhsil və səhiyyə nazirlikləri də müəllim və tibb işçilərinin çatışmazlığı problemi ilə üzləşib.

Sabit idarəçilik şəraitində siyasi sabitliyin və sosial təhlükəsizliyin dayağı olan müəllimlər, doktorlar, professorlar, əməkdaşlar və tədqiqatçılar alıcılıq qabiliyyətinin aşağı düşməsi, milli valyutanın çökməsi, keyfiyyətli xidmətlərə çıxışın olmaması və təhlükəsizlik problemləri səbəbindən İrandan mühacirət etmək və ya cəmiyyətdən təcrid olunmuş bir vəziyyətdə qalmaq məcburiyyətindədirlər.

**Güc boşluğu; rejimə sadiq insanların azalması**

Turçin və Qoldstounun fikrincə, siyasi tənəzzülün göstəricilərindən biri də hakimiyyətə bağlı və iddialı olanların artması, gəlir bölgüsündə isə onların paylarının (*gəlirlərinin*) azalmasıdır.

İslam Respublikası hazırda sadiq qüvvələrinin dolanışıqlarını təmin etmək üçün maliyyə təzyiqi ilə üzləşir, eyni zamanda bir çox “daxili”lər (*özününkülər*) də hakimiyyət dairəsindən uzaqlaşdırılıb.

Hakimiyyətin orta və aşağı pillələrindəki çöküş, sistemin zirvəsindəki çatla bərabər artıb. Bir tərəfdən, hökumətin bölgədəki yaınları və proksi qüvvələri Tehrandan əvvəlki kimi maliyyə resurslarını almırlar; digər tərəfdən, ölkə daxilində ictimai resurslara iddialı yeni siyasi qüvvələr yaranıb; hətta dini və hərbi qurumlar da öz qüvvələri arasında dolanışıq və mənzil böhranından danışır.

Legitimliyin bərpası nöqteyi-nəzərindən, indiki Ali dini rəhbər istisna olmaqla, əksər keçmiş prezidentlər və dövlət xadimləri "sapma" və ya "fitnə-fəsad yaratmaq" kimi titullarla sıradan çıxarılıblar və hətta hərbi hücumlar və ya xalq etirazları kimi böhran dövrlərində belə, onlar artıq ictimai səfərbərlik üçün hökumətin "fövqəladə tərəfdarları" kimi effektiv fəaliyyət göstərməmişlər.

Eyni zamanda, orta və aşağı təbəqlərin, o cümlədən hüquq-mühafizə orqanlarının, kəşfiyyatçıların və dövlət məmurlarının azalması açıq şəkildə görünür. Onların bəziləri tənqidçilər sırasına qoşulub, hətta xaricdə hakimiyyətə qarşı müxalifət cəbhəsində fəallıq göstərirlər.

***Müxalifətin gücləndirilməsi; fəallıq sahəsinin dəyişməsi***

Siyasi fəallıq sahəsinin ölkə daxilindən xaricə keçməsi ölkə daxilində siyasi sistemin legitimlik böhranının əlamətlərindən biridir; Liviya, Tunis və ya Yuqoslaviya ölkələrində keçid dövründə görülən və bu gün İslam Respublikasına hər zamankından daha çox təsir edən hallar kimi.

Etirazların və repressiya dalğalarının güclənməsi ilə müşayiət olunan hər bir dönəmdən sonra daxildə vətəndaş fəallığına ümidini kəsən hər bir fəal başqa ölkələrə köçdü. Tanınmış simaların və fəalların bu coğrafi yerdəyişmələri həm də təşkilati və media imkanlarının xaricə transferini də şərtləndirdi.

İslam Respublikasının rəsmiləri də müxalifətin təşkilində xarici medianın rolunu və dərin təsirini dəfələrlə etiraf ediblər.

İranın Avropa və ABŞ-dakı siyasi qüvvələri arasında böyük və yeni koalisiyaların yaradılması və nüfuzlu müxalifət xadimlərinin Qərb rəsmiləri ilə qarşılıqlı əlaqələrinin artması, o cümlədən "Məhsa" qiyamından sonra siyasi fəallıq meydanının keçid dövrünün təzahürləridir.

***Etirazlar və tətillər: Ali rəhbərlik qabiliyyətinin məhv edilməsi***

İslam Respublikasında hər on ildən bir baş verən böyük ümummilli etirazlar dalğası artıq hər on ildən bir baş verən bir neçə ümummilli etirazlar səviyyəsinə çatmışdır. Bu etirazlar müxtəlif sənaye və əmək sektorlarında baş verən ardıcıl və davamlı tətillərə əlavədir.

Təhlükəsizlik orqanları və parlament üzvləri də daxili hesabatlarda, xüsusən də fəhlələr, dövlət qulluqçuları və aşağı təbəqələr arasında narazılıq potensialının yüksək olduğunu etiraf ediblər.

İran cəmiyyəti illik ümummilli etirazlardan artıq hökumətə qarşı gündəlik müqavimətə keçib.

Digər tərəfdən, ictimai-siyasi təbəqələrin etirazlara cəlb olunma dairəsi genişlənib.

Əgər 1990-2000-ci illərin etirazları bütövlükdə sistemə sadiq olan siyasi qruplar tərəfindən idarə və səfərbər edilmişdisə, 2000-ci ildən sonrakı etirazlar artıq İslam Respublikasının keçmiş rəhbərliyinə inanan siyasi qrupları və fiqurları inkar edərək, imkansız təbəqə və ya gənclərlə həmrəylik üçün kortəbii qiyamlara çevrildi. İndi İran cəmiyyəti İslam Respublikasına qarşı mübarizədə Ceyms Skottun “gündəlik müqavimət” adlandırdığı hadisəyə üz tutub.

Bu günkü İran cəmiyyətində yaranmış belə bir vəziyyət artıq hökumətin bu simalardan (*şəxslərdən*) ictimaiyyəti səfərbər etmək və ya böhran vəziyyətində cəmiyyəti sakitləşdirmək üçün istifadə etmək imkanını itirməsi deməkdir.

***İctimai müzakirənin dəyişdirilməsi; deformalizasiya***

Devirmə anlayışı, bir çox digər siyasi terminlər kimi, bir neçə il əvvələ qədər İranda daha az ictimai və məqbul imicə malik olsa da, bir neçə dəfə baş vermiş ümummilli etirazlardan sonra “tabu” kimi görünsə də, indi müxalifət arasında dominant paradiqmaya çevrilib.

Digər tərəfdən, hətta yüksək vəzifəli dövlət məmurları da ictimai forumlarda devrilmə ilə üz-üzə olduqlarını açıq etiraf edirlər. Xüsusən də İsraillə müharibədən sonra Əli Xameneidən tutmuş ən aşağı səviyyəli siyasi, təhlükəsizlik və dini məmurlara qədər dəfələrlə bəyan ediblər ki, “devrilmə” həm xaricdə, həm də ölkə daxilində müxalifətin məqsədidir.

Belə bir tendensiya geniş ictimaiyyətin sosial şəbəkələrə daha çox çıxışı, onlar vasitəsilə təşkilatlanma və birlik yaratmaq imkanları, eləcə də cəmiyyətdə etiraz və təzyiq üsullarının geniş yayılmasının nəticəsidir; bu isə İslam Respublikasının siyasi hegemonluğunun və ona dəstəyin gücləndirilməsi prosesinin pozulmasına gətirib çıxarıb.

***Beynəlxalq təzyiq; müharibənin başlanması***

Qırx illik ideoloji cəhətdən gərgin diplomatiyadan sonra İran hökuməti ilə onun müxalif gücləri arasında qarşıdurma şifahi hücumlardan, gizli sui-qəsdlərdən və hətta kəşfiyyat məlumatlarının sızmasından açıq hərbi münaqişəyə çevrildi.

Son 12 günlük müharibə əsas diqqəti İslam Respublikasının qüdrətinin əsaslarına, yəni nüvə obyektlərinə, hərbi qüvvələrinə, repressiya və təhlükəsizlik qurumlarına yönəltdi və daha da zəiflətdi.

Bundan əvvəl, 2018-ci ildən bəri uzunmüddətli sanksiyalar neft ixracında kəskin azalma və bank kommunikasiyalarının tıxanması ilə İslam Respublikasının iqtisadi bünövrəsini çöküş həddinə çatdırmışdı.

Bu cür təzyiqlər müharibənin zərbələri ilə yanaşı, təkcə siyasi və təhlükəsizlik sahəsi ilə məhdudlaşmayıb, indiyədək dolanışıq sahəsində də öz nəticələrini verib.

İsraillə 12 günlük müharibə İslam Respublikasını daimi fövqəladə vəziyyətə salıb.

***Daimi fövqəladə vəziyyət; son "15 dəqiqə"***

Əvvəlki başlıqlarda (*bölümlərdə*) qeyd olunan amillərin səbəb olduğu İslam Respublikasındakı struktur səmərəsizliyi, elit miqrasiyası, orta təbəqənin dağılmasından tutmuş elit daxilindəki qarşıdurmaya və xarici təzyiqlərə kimi böhranların toplumu indiyədək siyasi sistemi tədricən çöküş böhranı vəziyyətinə salıb.

Amma 2025-ci ilin iyun ayından etibarən İsraillə müharibə, ağır kəşfiyyat zərbələri və onun hərbi və təhlükəsizlik sütunları üçün nəticələri ilə birlikdə İslam Respublikasını daimi fövqəladə vəziyyətə saldı.

Bu mərhələdə səmərəsizlik böhranı yalnız ardıcıl gündəlik böhranların öhdəsindən gəlməyə yönəlmiş ani və qısamüddətli qərarlar vəziyyətinə çevrilib və artıq sabit, rasional və effektiv siyasətə qayıdış getdikcə qeyri-mümkün olub.

Çöküş nəzəriyyələrindəki bu cür əlamətlər, xüsusən də konseptual olaraq “dağılmadan 15 dəqiqə əvvəl” hesab oluna bilən daimi fövqəladə hallar zamanı siyasi sistemin və idarəçiliyin dağılmaqabağı əlamətləri kimi görünür. Amma bu "15 dəqiqə"nin nə vaxt başa çatacağını heç kim dəqiq deyə bilməz.

***Mənbə:*** https://www.iranintl.com/202508073462